# Laçın növbəti qayıdış karvanını qarşılayıb





**İşğaldan azad edilmiş digər şəhər və kəndlərimizlə yanaşı, Laçına da mütəmadi olaraq köçlər təşkil olunur. Bu qayıdış karvanları həyatın ən ağır, amansız üzünü görmüş insanları əzəli torpaqlarına qovuşdurur. El-obalarından didərgin salınmış laçınlılar mərhələli olaraq dədə-baba yurdlarına qayıdırlar.**

## Daha 59 nəfər Laçına dönüb

Dünən Laçın şəhərinə növbəti köç karvanı yola salınıb. Bu mərhələdə şəhərə daha 18 ailə - 59 nəfər köçürülüb. Bununla da indiyədək Laçın şəhərində 570 ailənin, yəni 2090 nəfərin daimi məskunlaşması təmin edilib.

Uzun illərdir yurd həsrəti çəkən, bəlkə də bu torpaqları bir daha görməyəcəyini düşünən keçmiş məcburi köçkün Hüsniyyə Hüseynova deyib ki, həyatının ən gözəl günlərini yaşadığı elinə, obasına döndüyü üçün sevincinin hədd-hüdudu yoxdur: "Bu hissi dilə gətirmək mümkün deyil. Allah bu sevincli günü bütün keçmiş məcburi köçkünlərə nəsib etsin. Hamı öz yurd-yuvasına, elobasına qayıtsın. Laçın şəhərini tərk edəndə 28 yaşım vardı, ora 61 yaşımda qayıdıram. Doğma yurduma həyat yoldaşım və qızımla dönürəm. Allah Azərbaycan Ordusunu, Prezidentini qorusun".





Laçında uzun illər mətbuat işçisi kimi fəaliyyət göstərən Laçın şəhər sakini Nəriman Zeynallı yurdunda işini yenidən davam etdirəcəyini bildirib. Doğma yurduna övladları ilə birlikdə qayıtmağına, bu günü yaşamağına səbəb olan şəhidlərə rəhmət diləyib, qazilərə cansağlığı arzulayıb.

Keçmiş məcburi köçkün Sevgilə Məmmədova 30 ildən çoxdur həsrətini çəkdiyi Laçına döndüyü üçün özünü çox xoşbəxt hiss etdiyini deyib: "Biz Laçını bütün ailə üzvlərimizlə məcburi şəkildə tərk etmişik. Artıq uzun illər keçdiyinə görə bəzi yaxınlarımı itirmişəm. İndi Laçına tək dönürəm. Bundan sonra Laçında firavan yaşamaq istəyirik".

Növbəti köç karvanı ilə Laçın şəhərinə çatan ailələrə evlərinin açarları təqdim olunub.

Laçına qədəm qoyan ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış silah-sursatların təhlükəsi barədə ətraflı məlumat verilib. Tanımadıqları naməlum əşyalar və cisimlərdən uzaq durmaları və belə hallarla qarşılaşdıqları zaman aidiyyəti qurumlara xəbər vermələri tövsiyə olunub. Açarların təqdim edilməsi mərasimində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Laçın rayonunda Bərpa Tikinti və İdarəetmə Xidmətinin əməkdaşları və digər şəxslər iştirak ediblər. Ailələr sevinc hissi ilə açarları təhvil alıb və öz evlərində məskunlaşıblar.

## 8000-dən çox insan yurduna qovuşub

Məqsədyönlü və genişmiqyaslı quruculuq işləri sayəsində Qarabağ və Şərqi Zəngəzurda əhalinin dayanıqlı məskunlaşması təmin edilir. Keçmiş məcburi köçkünlərin doğma yurda qayıdışı ilə bağlı qarşıya qoyulan vəzifələr uğurla həyata keçirilir.

Artıq 2111 ailə - 8153 nəfər əzəli yurdlarına geri dönüb. İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 570 ailə (2090 nəfər) Laçın şəhərində, 822 ailə (3132 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 204 ailə (763 nəfər) Şuşa şəhərində, 44 ailə (169 nəfər) Xocalı şəhərində daimi məskunlaşıb.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2024.- 12 sentyabr (№ 134).- S.3.